UOT 94 (479.24)

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI PARLAMENT MƏCLİSİ İLƏ ƏLAQƏLƏRİ TARİXİ

**T.E.HACIYEVA**
***Bakı Dövlət Universteti***
***tamilla420@mail.ru***

*Məqalədə Azərbaycan Respublikasının Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv və birbaşa onun təsisçilərindən biri olması öz əksini tapmış və bu təşkilatın yaranma tarixi şərh olunmuşdur. Təşkilata üzv olduqdan sonra Azərbaycan parlamentinin buradakı fəaliyyəti də məqalədə əksini tapmışdır. Eyni zamanda burada Azərbaycanın quruma rəhbərlik etdiyi dövrdə gördüyü işlərə də xüsusi yer ayrılmış, Milli Məclisin sədri Oqtay Əsədovun rəhbərliyi ilə keçirilən iclaslar barədə məlumatlar verilmişdir.*

**Açar sözlər:** Qara Dəniz, Milli Məclis, iqtisadi əməkdaşlıq, təşkilat, inkişaf

Sürətlə qloballaşan dünyada Qara Dəniz hövzəsinin əməkdaşlıq və inkişaf bölgəsinə çevrilib-çevrilməyəcəyi məsələsi aktuallaşır. Ötən əsrin 90-cı illərinin əvvəllərindən etibarən bu bölgə dövlətlərinin rəsmi nümayəndələri insanların, sərmayələrin və əmanətlərin azad surətdə hərəkət edə biləcəyi, əməkdaşlıq üzrə təşəbbüs təkliflərinin aşağıdan-yuxarıya doğru hərəkət edəcəyi və beləliklə, bölgə dövlətlərinin bu cür əməkdaşlıq üçün hüquqi strukturun yaradılması imkanına sahib olacağı bir təşkilatın təsisinə dair müzakirələr aparmağa başladılar. Azərbaycan Respublikasının regional inteqrasiyaya dair ilk təşəbbüslərindən biri məhz Qara Dəniz hövzəsi ilə bağlı oldu.

Azərbaycan Respublikasının bu təşəbbüsü Qara Dəniz hövzəsinin dünya iqtisadiyyatına inteqrasiyası, təşkilata üzv olan dövlətlər arasında əməkdaşlığın dərinləşməsi və həmin məkanın sabit və inkişaf etmiş bölgəyə çevrilməsi istiqamətində atılmış ilk addım idi.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT), üzv dövlətlərin maraqlarını və güc balansını nəzərə almaq şərti ilə bölgədə əməkdaşlığın əsas istiqamətlərinin müəyyən edilməsi və hövzə dövlətləri arasında əlaqələrin nizamlanmış şəkildə inkişaf etdirilməsi məqsədi ilə yaradıldı.

1992-ci il iyun ayının 25-də İstanbulda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı üzrə Zirvə Bəyannaməsinin (İstanbul Bəyannaməsinin) Albaniya, Er-

mənistan, Azərbaycan, Bolqarıstan, Gürcüstan, Yunanıstan, Moldova, Rumıniya, Rusiya, Türkiyə və Ukrayna dövlət və ya hökumət başçıları tərəfindən imzalanması ilə yeni regional əməkdaşlıq təşkilatı yaradıldı. Həmin tarixi gündə İstanbul Bəyannaməsi ilə yanaşı 11 ölkənin dövlət və hökumət başçıları Bosfor Bəyanatını da imzaladılar.

Bundan sonra Türkiyə Böyük Millət Məclisi bölgə dövlətlərinin qanunverici orqanları arasında əməkdaşlığı təmin edəcək təşkilatın yaradılması ideyası ilə çıxış etdi. Layihə hazırlandıqdan sonra təşkilata üzv olan dövlətlərin parlament sədrlərinin müzakirəsinə təqdim edildi. Həmin sənəd 1993-cü ilin fevral ayının 24-dən mart ayının 1-dək İstanbulda müzakirə olundu. Azərbaycan Respublikasını bu tədbirdə Milli Məclisin sədri və onu müşayiət edən nümayəndə heyəti təmsil edirdi. Müzakirələrdən sonra parlament sədrləri Qara Dəniz İqtisadi Əməkldaşlıq Təşkilatının Parlament Məclisinin yaradılması haqqında bəyamnamə imzaladılar (9, 97).

1993-cü il iyun ayının 15-də Qara Dəniz İqdisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin təsis iclası keçirildi. İclasda Albaniya, Azərbaycan, Türkiyə, Rusiya, Gürcüstan, Ukrayna, Rumıniya, Moldova, Ermənistan, Yunanıstan nümayəndə heyətləri iştirak etdilər. Azərbaycan Respublikasını bu tədbirdə Milli Məclisin deputatı Q.Qurbanov təmsil edirdi (10, 18).

Həmin ilin noyabr ayının 29-dan dekabr ayının 1-dək Kiyevdə (Ukrayna) QDİƏTPM-in Baş Məclisinin birinci ümumi sessiyası keçirildi. Milli Məclisin nümayəndə heətinin rəhbəri, parlament sədrinin müavini A.Cəlilov tədbirdə çıxış edərək bu təşkilatın əhəmiyyətindən bəhs etdi. Təşkilatın hüquqi və siyasi işlər, mədəniyyət, təhsil və sosial işlər üzrə komitələrinin ilk iclaslarındakı müzakirələrdə Azərbaycan tərəfi fəal iştirak etdi.

1994-cü il iyun ayının 20-22-də Buxarestdə (Rumınya) QDİƏTPM-in yaz sessiyası keçirildi. Tədbirdə ölkəmizi Milli Məclisin sədr müavini Afiyəddin Cəlilovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edirdi. Sessiyada fəal iştirak edən nümayəndə heyətimiz müzakirə olunan məsələlər ətrafında geniş fikir mübadiləsi apardı, Rumınya, Albaniya, Moldova və digər ölkələrin parlament sədrləri və nümayəndə heyətləri ilə ikitərəfli əməkdaşlıq məsələlərini müzakirə etdilər (1, 142).

Bu sessiyada qurumun vitse-prezidenti vəzifəsinə seçkilər keçirildi. Həmin vəzifəyə Azərbaycan Respublikası Milli Məclisinin sədr müavini A.Cəlilovun və Ermənistan Respublikası Milli Məclisinin sədr müavini A.Tumanyanın namizədliyi irəli sürüldü. Gizli səsvermədə Azərbaycan tərəfinə etimad göstərildi. Bu seçkinin nəticələri Azərbaycan Respublikası parlamentinin diplomatik uğuru kimi qiymətləndirildi, nəticədə müzakirə edilən məsələlərdə Azərbaycan nümayəndə heyətinin fəallığı daha da artdı.

Azərbaycan parlamentinin nümayəndə heyəti QDİƏTPM-in hüquqi və siyasi işlər üzrə komitəsi və Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Məclisinin xarici siyasət üzrə komissiyası ilə birgə keçirdiyi "Qara dəniz bölgəsində sülh və sabitlik" mövzusundakı seminarda

iştirak etdi. Burada “Qara dəniz bölgəsində sülh və sabitlik: indi və gələcəkdə” və “Qara dəniz bölgəsində münaqişələrin qarşısının alınması: parlament mexanizmi” mövzuları müzakirə olundu.

Seminarın sonunda yekun bəyannamə qəbul edildi. Qeyd edildi ki, Qara dəniz hövzəsində bütün münaqişələr beynəlxalq hüquq normaları, dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə hörmət, başqa dövlətlərin daxili işlərinə qarışmamaq prinsipləri əsasında tənzimlənməsi, dinindən, milliyyətindən, irqindən asılı olmayaraq insan azadlıqları qorunmalıdır. İştirakçılar QDİƏTPM-in və MDB-nin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Məclisinin münaqişələri tənzimləmək təşəbbüsünü bəyəndilər. Seminar iştirakçıları bölgədə beynəlxalq hüquq normalarının bərpa olunmasına, işğal edilmiş ərazilərin azad edilməsi və qaçqınların öz yurdlarına qaytarılması zərurətini bildirdilər. Yekun sənəddə qeyd olunurdu ki, münaqişələr bölgənin ümumi inkişafına əngəl yaradır (2, 64).

1995-ci ilin noyabr ayının 26-29-da Ankarada (Türkiyə) Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisi Bürosunun, Daimi Komitəsinin və Baş Məclisin ümumi sessiyası keçirildi. İclasda ölkəmizlə yanaşı Türkiyə, Albaniya, Rumıniya, Moldova, Rusiya, Ukrayna, Gürcüstan, Ermənistan və Yunanıstan nümayəndə heyətləri iştirak edirdilər.

Təşkilatın VI ümumi sessiyasında Azərbaycan Respublikası Milli Məclisinin sədri əlifba sırasına uyğun olaraq, rotasiya qaydası ilə qurumun dönəm prezidenti seçildi. Y.Əliyev təşkilatın yeni prezidentinin sessiya iştirakçılarına müraciətini oxudu. Bu iclasda QDİƏTPM-in növbəti sessiyasının Bakıda keçirilməsi qərara alındı (3, 96).

1996-cı il iyun ayının 11-13-də QDİƏTPM-in VII ümumi sessiyası Bakıda keçirildi. Tədbirdə 200-ə yaxın nümayəndə iştirak edirdi. Özünü dünya ictimayyətinə tanıtmaq baxımından bu tədbirin ölkəmiz üçün xüsusi əhəmiyyəti var idi. Sessiyanı AR Milli Məclisinin sədri, təşkilatın prezidenti açdı. Tədbirdə geniş nitqlə çıxış etmiş AR Prezidenti Heydər Əliyev ölkədə həyata keçirilən demokratik islahatlar barədə iştirakçılara məlumat verdi. O, Ermənistanın işğalçılıq siyasəti nəticəsində doğma yurdlarından qovulmuş soydaşlarımız, onların ağır vəziyyəti, ölkə iqtisadiyyatına dəymiş ziyanın miqyası haqqında məlumatı iştirakçıların nəzərinə çatdırdı. AR Prezidenti bir daha qeyd etdi ki, ölkə rəhbərliyi münaqişənin dinc yolla həllinə tərəfdardır. Üzv ölkələr arasında əməkdaşlığın genişləndirilməsinin vacibliyini, bölgədə sülhün təmin edilməsində QDİƏTPM-in rolunu xüsusilə qeyd edən AR Prezidenti sessiya iştirakçılarını da bu istiqamətdə mühüm addımlar atmağa səslədi.

Sessiyada təşkilat üzvü olan ölkələr arasında nəqliyyat sahəsində əməkdaşlıq, Qara dəniz ticarət və inkişaf bankının yaradılması, cinayətkarlığa qarşı birgə mübarizə məsələləri müzakirə olundu və müvafiq qərarlar qəbul edildi (4, 187).

Təşkilatda Gürcüstanı təmsil edən M.Baramidzenin hazırladığı məruzədə Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın sosial həyatına dəymiş

ziyan, AR parlamentinin sosial sahədə qəbul etdiyi qanunlar və qaçqınların vəziyyəti barədə məlumat öz əksini tapmışdır.

1998-ci ilin iyun ayının 5-də Yalta şəhərində (RF) təşkilatın iştirakçı dövlət və hökumət başçıları tərəfindən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Nizamnaməsi imzalandı. Həmin sənədin 1999-cu ildə qüvvəyə minməsi ilə bu əməkdaşlıq mexanizmi təşkilat statusu aldı.

Azərbaycan Respublikası QDİƏT-də 6 aylıq sədrliyi ilk dəfə olaraq 2003-cü ilin may ayında öz üzərinə götürdü.

Azərbaycan Respublikası QDİƏT-də iştirakının məqsədlərini təşkilat çərçivəsində həyata keçirmək üçün uğurlu və misli görünməmiş fəal sədrlik proqramını tərtib edərək gerçəkləşdirdi. Belə ki, ölkəmizin üstünlüklərə malik olduğu sahələr üzrə Bakıda nazirlər səviyyəsində iclaslar təşkil edildi: 2003-cü il sentyabr ayının 18-19-da enerji, həmin ilin oktyabr ayının 1-3-də nəqliyyat, 2003-cü ilin sentyabr ayının 25-26-da turizm sahələrinə dair iclaslar baş tutdu və ekspertlər səviyyəsində bir sıra görüşlər keçirildi. Təşkilat üzvü olan ölkələrin Enerji və Nəqliyyat Nazirlərinin toplantısının nəticəsi kimi müvafiq sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinə yönəlmiş Bakı Bəyanatları qəbul edildi.

2003-cü ilin oktyabr ayında ölkəmizin QDİƏT-də sədrlik müddəti bitdi. Lakin buna baxmayaraq, üzv dövlətlərin xahişi ilə Azərbaycan Respublikası konstruktiv mövqe nümayiş etdirərək sədrliyi ikinci dəfə öz öhdəsinə götürdü. (2003-cü il oktyabr - 2004-cü il aprel).

Azərbaycan Respublikası ikinci Sədrlik müddətində də bir sıra əhəmiyyətli tədbirlərin keçirilməsinin təşəbbüskarı oldu. Məsələn, 2004-cü ilin aprel ayının 15-16-da Bakıda QDİƏT Təhsil Nazirlərinin iclası keçirildi. Təşkilat üzvü olan ölkələrin Xarici İşlər Nazirlərinin 2004-cü ilin aprel ayının 30-da keçirilmiş XI iclası da yüksək səviyyədə başa çatdı.

AR sədrliyi dövründə yenicə yaranmış dövlət – Serbiya və Çernoqoriya (Monteneqro) – QDİƏT-in üzvlüyünə qəbul olundu. Serbiya və Çernoqoriya rəhbərliyi QDİƏT-in Əsasnaməsini 2004-cü ilin aprel ayında qəbul edərək təsdiqlədi.

Azərbaycan QDİƏT-də sədrliyi təhvil aldığı məqamadək təşkilatın gələcək inkişafı üçün vacib olan, təcili həllini tələb edən bir sıra məsələləri aktuallaşdırdı.

AR təşkilata sədrliyi dövründə Qara dəniz bölgəsində ticarətin asanlaşdırılması məsələsinə xüsusi diqqət yetirildi. Bu məqsədlə bölgədə iş adamları və peşəkar sürücülər üçün viza rejiminin mülayimləşdirilməsi məsələləri QDİƏT-in müxtəlif İşçi Qruplarında müzakirə edildi. Bu məsələ ilə əlaqədar olaraq xüsusi Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) dəstəyi ilə QDİƏT çərçivəsində həyata keçirilmiş layihəni xüsusi qeyd etmək lazımdır. Bu layihənin gerçəkləşdirilməsi nəticəsində bölgədə ticarətin asanlaşdırılmasına yönəldilmiş tövsiyələr hazırlandı və təşkilat üzvü olan dövlətlərin nəzərinə çatdırıldı.

Azərbaycan Respublikasının təşəbbüsü ilə Qara dəniz bölgəsində kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi və dövlətlərin bu işdə rolunun və töhfəsinin müəyyənləşdirilməsi məqsədilə bir sıra xüsusi iclaslar və seminarlar təşkil edildi.

2006-cı ilin noyabrında QDİƏT PM plenar iclası Bakıda keçirildi. Bu tədbirə AR Milli Məclisinin Sədri Oqtay Əsədov sədrlik edirdi. Təşkilatın Baş Assambleyasının ən yüksək səviyyədə təşkil olunması üçün Milli Məclis rəhbərliyi lazımi şərait yaratdı. Bu tədbirdə təşkilata üzv olan ölkələrlə yanaşı bir sıra mötəbər beynəlxalq parlament qurumlarının yüksək səviyyəli nümayəndələri də iştirak etdilər. Oqtay Əsədov gündəlikdə olan əsas məsələlərə toxundu. O, bölgədə əldə olunmuş uğurları qeyd etdi. O.Əsədov bölgədə hələ də həll edilməmiş bir sıra münaqişələrin mövcudluğunu xüsusilə qeyd edərək, Dağlıq Qarabağ münaqişəsinin tezliklə, beynəlxalq hüquq normalarına uyğun surətdə həll olunacağına ümidvar olduğunu bildirdi (5, 38).

2008-ci ilin iyun ayının 9-11-də Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisi Baş Assambleyasının plenar sessiyası və üzv ölkələrin parlament sədrlərinin sammiti keçirildi. Həmin tədbirdə Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov iştirak etdi. Oqtay Əsədov parlament sədrlərinin sammitində çıxış edərək, təşkilatın köməyi ilə üzv ölkələr arasında qurulmuş mədəni, iqtisadi əlaqələri yüksək qiymətləndirdi. O, parlament Məclisi ilə Avropa Parlamenti arasında əlaqələrin sürətlə inkişaf etdiyini qeyd etdi. Məruzəçi parlamentlərarası dostluq qruplarının fəaliyyətinin ikitərəfli əlaqələrin inkişafında mühüm rol oynadığını vurğuladı. Sədr bildirdi ki, təşkilatın Parlament Məclisinin fəaliyyətini yüksək qiymətləndirmək lazımdır, çünki bu fəaliyyət xalqların yaxınlaşmasında müstəsna əhəmiyyətə malikdir. Oqtay Əsədov bütün bu inkişafla yanaşı bölgədə bir sıra problemlərin də qaldığını göstərdi. O, Dağlıq Qarabağ münaqişəsinin bu günə qədər həll olunmamasının Qara dəniz bölgəsinin inkişafını ləngitdiyini xüsusilə qeyd etdi (6, 37).

Azərbaycanın Respublikasının xarici siyasətinin inkişaf etdirilməsində Milli Məclis səylə çalışır. O, parlamentlərarası qurumlarla sıx əməkdaşlıq edir. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında iştirak ölkəmizin iqtisadi inkişafı üçün yeni imkanlar yaradır. Bölgə ölkələri arasında iqtisadi əlaqələrin genişləndirilməsi, iqtisadi sahədə təcrübə mübadiləsi AR üçün xüsusi əhəmiyyət kəsb edir. QDİƏTPM-ə üzv olan ölkələr arasında iqtisadi qanunvericiliyin uzlaşdırılması bu sahədə əməkdaşlığın inkişafına xüsusi təkan verir. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının çərçivəsində iqtisadi inteqrasiya bölgə dövlətləri arasında siyasi münasibətlərin möhkəmləndirilməsinə, region xalqları üçün ümumi olan bir çox problemlərin həllinə yol açır, bölgənin zəngin təbii ehtiyatlarından, nəqliyyat imkanlarından və başqa ehtiyatlardan səmərəli istifadə olunmasına yeni imkan yaradır.

QDİƏT üzvü olan ölkələr arasında son illərdə siyasi, iqtisadi və mədəni sahələrdə ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsi müşahidə

olunmaqdadır. Bu yalnız təşkilat üzvü olan ölkələr üçün deyil, bütün Qara Dəniz bölgəsi xalqları üçün əhəmiyyətlidir. Parlament Məclisi Qara dəniz bölgəsi xalqlarının istəklərini həyata keçirmək məqsədi ilə bu işə dəstək verməkdədir.

Üçüncü minilliyin əvvəlində dünya siyasətində və iqtisadiyyatında Qara Dəniz bölgəsinin rolu artmaqdadır və bu amil Qara dəniz hövzəsində yerləşən bütün ölkələr arasında yaxın əməkdaşlığı labüd və zəruri edir.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisi artıq özünü parlamentlərarası dialoqun demokratik forumu, deputatlar vasitəsilə xalqlar arasında mühüm əlaqələr yaradan təşkilat kimi təsdiqləmişdir.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ilə daha geniş coğrafi məkanda yerləşən dövlətlər arasında iqtisadi əməkdaşlıq tədricən artır. Azərbaycan Respublikası müvafiq regional parlament və hökumət təşkilatları ilə xalqın ümdə maraqlarına cavab verən əməkdaşlıq qurur, həmin əməkdaşlığın inkişaf etdirməsi onun ümumavropa və qlobal inteqrasiya prosesinə töhfələrini artıracaqdır.

## ƏDƏBİYYAT


1. AR MM cari arxivi. Beynəlxalq əlaqələr şöbəsi QDİƏT PM-in işinə dair sənədlər, 1994-cü il. Bakı, 252 s.
2. AR MM cari arxivi. Beynəlxalq əlaqələr şöbəsi QDİƏT PM-in işinə dair sənədlər 1995-ci il. Bakı, 116 s.
3. AR MM cari arxivi. Beynəlxalq əlaqələr şöbəsi QDİƏT PM-in işinə dair sənədlər 1995-ci il. Bakı, 200 s.
4. AR MM cari arxivi. Beynəlxalq əlaqələr şöbəsi QDİƏT PM-in işinə dair sənədlər yanvar-dekabr 1996-ci il. Bakı, 292 s.
5. AR MM cari arxivi. Beynəlxalq əlaqələr şöbəsi QDİƏT PM sənədləri 2006-ci il. Bakı, 356 s.
6. AR MM cari arxivi. Beynəlxalq əlaqələr şöbəsi QDİƏT PM sənədləri 2008-ci il. Bakı, 228s.
7. Ələsgərov M. Azərbaycan Parlamenti və Beynəlxalq Təşkilatlar. Bakı: Azərbaycan Respublikası Milli Məclisi, 2004, 421 s.
8. Алиев Г. Мы не можем допустить возникновения на территории Азербайджана второго армянского государства. Баку: Управление делами Президента Азербайджанской Республики, 2006, 410 с.
9. Karadeniz Ekonomik İşbirligi projesi ve üye ülkeler, Bilgi, 1993, n.7, Ankara, Türkiye Büyük Millet Meclisi Basımevi 1993, 140 s.
10. Karadeniz Ekonomik İşbirligi Parlamenter Asamblesi. İçtüzük, İstanbul, Karadeniz Ekonomik İşbirligi Parlamenter Asamblesi, 1993, 18 s.

# ИСТОРИЯ СВЯЗЕЙ МИЛЛИ МЕДЖЛИСА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ С ПАРЛАМЕНТСКОЙ АССАМБЛЕЕЙ ОРГАНИЗАЦИИ ЧЕРНОМОРСКОГО ЭКОНОМИЧЕСКОГО СОТРУДНИЧЕСТВА

**Т.Э.ГАДЖИЕВА**

## РЕЗЮМЕ

В представленной статье говорится о членстве Азербайджанской Республики в Организации Черноморского Экономического Сотрудничества и о том, что она является одним из непосредственных учредителей этой организации. Статья раскрывает историю создания данной организации. Здесь отражена деятельность Азербайджанского парламента после вступления в организацию. Особое место отведено проделанной работе Азербайджаном в период правления данным органом. Даются сведения о заседаниях проводимых под руководством председателя Милли Меджлиса Октая Асадова.

**Ключевые слова:** Черное море, Милли Меджлис, экономическое сотрудничество, организация, развитие

# THE HISTORY OF RELATIONS OF THE MILLI MAJLIS OF THE AZERBAIJAN REPUBLIC WITH THE PARLIAMENTARY ASSEMBLY OF THE BLACK SEA ECONOMIC COOPERATION

**T.E.HAJIYEVA**

## SUMMARY

The present article deals with the membership of the Republic of Azerbaijan to the Black Sea Economic Co-operation and notes that it is one of the direct founders of the organization. The article reveals the history of the organization. It covers the activities of the Azerbaijani parliament after its membership. A special place is given to the work of Azerbaijan in the period of its authority. The meetings held under the supervision of the chairman of the Milli Majlis, Ogtay Asadov are highleghted.

**Key word:** Black Sea, Milli Majlis, economic cooperation, organization, development